Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 5 iyun tarixli, 90 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin

## ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi (bundan sonra - Mərkəz) "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli, 539 nömrəli Fərmanına əsasən yaradılmışdır.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Azərbaycan Respublikası Vergilər Nazirliyinin müvafiq normativ hüquqi aktlarına, bu Əsasnaməyə müvafiq fəaliyyət göstərən, habelə digər mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarını və elmi-metodik tövsiyələrini rəhbər tutan ixtisasartırma və yenidən hazırlama tədris müəssisəsi statuslu elm və təhsil ocağıdır.

1.3. Mərkəz dövlət vergi orqanlarının (bundan sonra - vergi orqanları) vəzifəli şəxslərinin *və digər əməkdaşların, habelə bağlanılmış müqavilə əsasında müxtəlif sahələrdə çalışan şəxslərin, tələbələrin (bundan sonra – Mərkəzin dinləyiciləri)* peşə hazırlığının təkmilləşdirilməsini, *yenidən hazırlanmasını* və ixtisaslarının artırılmasını, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasını təmin edir.[1]

1.4. Mərkəzin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

*Mərkəzin dinləyicilərinin ödənişli və ödənişsiz əsaslarla vergi işinin təşkili və iqtisadi fəaliyyət sahəsində peşə hazırlığının təkmilləşdirilməsi, yenidən hazırlanması və ixtisaslarının artırılması;*[2]

vergi orqanlarında kadr siyasətinə dair təkliflərin işlənib hazırlanması;

vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair elmi tədqiqatların aparılması;

~~*bağlanılmış müqavilələr əsasında ödənişli əsaslarla müxtəlif sahələrdə çalışan mütəxəssislərin ixtisaslarının artırılması.*~~[3]

1.5. Mərkəz hüquqi şəxsdir, əmlaka, müstəqil balansa, xəzinə hesablarına malikdir, öz adından müqavilələr bağlaya bilər, əmlak və qeyri-əmlak hüquqları əldə edə və qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq öhdəliklər daşıya bilər.

Mərkəzin Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri və öz adı olan möhürü, müvafiq ştampı və habelə müəyyən olunmuş nümunəvi blankları vardır.

1.6. Mərkəzə verilmiş əmlak dövlət mülkiyyətidir. Mərkəz fəaliyyətinin həyata keçirilməsi üçün ona idarəetmə hüquqları ilə verilmiş əmlaka və bu əmlakdan təhsil müəssisələri üçün müəyyən edilmiş istifadə hüququna malikdir.

1.7. Mərkəz Şamaxı rayonunda yerləşir.[4]

*1.8. Mərkəz fəaliyyətini Bakı şəhərində və Şamaxı rayonunda həyata keçirir.*[5]

## 2. MƏRKƏZİN ƏSAS VƏZİFƏLƏRİ VƏ FUNKSİYALARI

2.1. Öz fəaliyyətinin əsas istiqamətlərinə uyğun olaraq Mərkəz aşağıdakı vəzifələri yerinə yetirir:

*Mərkəzin dinləyicilərinin peşə hazırlığının təkmilləşdirilməsini, yenidən hazırlanmasını və ixtisaslarının artırılmasını həyata keçirir;*[6]

Azərbaycan Respublikasının iqtisadi maraqlarının qorunmasını təmin etmək məqsədi ilə vergi sisteminin təkmilləşdirilməsi və vergi orqanlarının müasir metodoloji bazasının yaradılması sahəsində elmi tədqiqatlar aparır;

Mərkəzin dinləyicilərinin vergilərin müxtəlif sahələri üzrə əvvəllər qazanılmış biliklərinin, habelə mövcud qanunvericiliyə edilən dəyişiklik və əlavələr üzrə biliklərinin elmi, nəzəri və praktiki baxımdan təkmilləşdirilməsini təmin edir;

təhsilin yekunlarına görə dinləyicilərin peşə biliklərini və işgüzar keyfiyyətlərini qiymətləndirir, bunun əsasında onların sonrakı istifadəsi üzrə tövsiyələr hazırlayır;

tədris planlarını işləyib hazırlayır və təsdiq edilmək üçün Azərbaycan Respublikasının vergilər nazirinə təqdim edir;

tədris prosesini yüksək səviyyədə, mövcud standartlara uyğun təşkil edir;

tədris, elmi tədqiqat işləri və digər fəaliyyətlərin planlaşdırılmasını və təşkilini həyata keçirir;

vergi orqanlarının təcrübəsinin dərindən öyrənilməsini təşkil edir;

dinləyicilərin ixtisasının artırılması sahəsində tələbatları öyrənir və buna müvafiq təkliflər hazırlayır;

əməli fəaliyyət prosesində müasir elmi-texniki informasiyadan və vasitələrdən səmərəli istifadəni təmin edir;

təlimin keyfiyyətini yaxşılaşdırır, əldə edilən bilikləri və vərdişləri konkret məsələlərin praktiki həllinə istiqamətləndirir;

öz profili üzrə elmi iclaslar, tədris və metodik konfranslar, seminarlar və yığıncaqlar keçirir;

digər ixtisasartırma müəssisələri, *elmi müəssisə və* təşkilatları ilə əməkdaşlığı həyata keçirir;[7]

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olan digər vəzifələri həyata keçirir.

## 3. MƏRKƏZİN STRUKTURU VƏ İDARƏ EDİLMƏSİ

3.1. Mərkəzin strukturu, işçilərin say həddi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

~~Mərkəzin strukturuna bunlar daxildir: İqtisadiyyat və menecment kafedrası, Vergi metodologiyası kafedrası və Vergi qanunvericiliyi və təsərrüfat hüququ~~

~~kafedrası, elmi tədqiqat bölməsi, tədris və metodika şöbəsi, maliyyə və təsərrüfat şöbəsi, mühasibat və hüquqi şəxs statusu olmayan digər köməkçi bölmələr.~~ [8]

Mərkəzin ~~göstərilən~~ şöbələri və bölmələri Mərkəzin Elmi Şurasının təqdimatı ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən yaradılır, yenidən təşkil olunur və ləğv edilir. Onların fəaliyyəti Azərbaycan Respublikasının vergilər naziri tərəfindən təsdiq olunan əsasnamələrlə həyata keçirilir.

3.2. Mərkəzə ümumi rəhbərliyi Mərkəzin rəisi, o olmayanda müavinlərdən biri həyata keçirir.

Rəis Azərbaycan Respublikasının vergilər naziri tərəfindən təyin olunur.

Mərkəzin rəisinin birinci müavini, *müavini* və digər vəzifəli şəxslər Mərkəzin rəisinin təqdimatına əsasən Azərbaycan Respublikasının vergilər naziri tərəfindən təyin olunurlar.[9]

3.3. Mərkəzin rəisi:

bütün dövlət orqanlarında, idarələrində və təşkilatlarında Mərkəzi təmsil edir;

öz səlahiyyəti çərçivəsində Mərkəzin maliyyə fəaliyyətinə dair məsələləri həyata keçirir;

Mərkəzin bütün işçilərinin və dinləyicilərinin icra etməli olduğu əmr və sərəncamlar verir;

Mərkəzin vəzifəli şəxslərindən başqa, digər işçiləri ilə əmək müqaviləsi bağlayır və onu ləğv edir;

qanunvericiliyə uyğun olaraq tədris yükünün miqdarını müəyyən edir;

aylıq tarif stavkalarını təsdiq edir;

Mərkəzin işçilərinin əmək haqqının ödənilməsini və onların mükafatlandırılmasını təşkil edir;

elmi tədqiqat işlərinin yerinə yetirilməsi və digər işlər üçün ödənilməli olan haqqın məbləğini müəyyən edir;

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər hüquq və vəzifələri həyata keçirir.

3.4. Azərbaycan Respublikası vergilər nazirinin əmrinə əsasən Mərkəzin fəaliyyətinin əsas məsələlərinə baxılması üçün rəisin rəhbərliyi ilə Mərkəzin Elmi Şurası yaradılır.

Mərkəzin Elmi Şurasının tərkibinə rəis, onun müavinləri, *şöbə və bölmə rəisləri*, Mərkəzin bölmə və şöbələrinin seçilmiş aparıcı alim və işçilər, habelə digər təhsil və elm müəssisələrinin aparıcı alimləri daxildir. [10]

Mərkəzin Elmi Şurası:

tədris, tədris-metodik, elmi tədqiqat işinin aparılmasına, kadrların ixtisasının artırılması məsələlərinə rəhbərlik edir;

*şöbə və bölmə rəislərini* seçir; [11]

Mərkəzin *şöbə və bölmələrinin* yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə təqdimat verir; [12]

Mərkəzin şöbə və bölmə *rəislərinin* hesabatlarını dinləyir; [13]

tədqiqatçılarla iş qaydasını müəyyən edir;

əlaqədar ~~kafedraların,~~ bölmə və şöbələrin iştirakı ilə işlənib hazırlanan elmi proqramları və ayrı-ayrı dinləyici qruplar üçün tədris planlarını təsdiq edir; [14]

mərkəzin müəllimlərinə və əməkdaşlarına dosent və professor elmi adlarının verilməsi barədə *vəsatət qaldırır*, onların dissertasiyalarının mövzularını *müəyyən edir* və planlarını təsdiq edir, hazır olan dissertasiya işlərinin ilkin müzakirəsini həyata keçirir.[15]

mərkəzin Elmi Şurasının fəaliyyətinin əsas istiqamətləri Mərkəzin təqdimatına əsasən Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təsdiq edilən "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Elmi Şurası haqqında Əsasnamə" ilə müəyyən edilir.

## 4. MƏRKƏZDƏ İXTİSASLARIN ARTIRILMASI VƏ KADRLARIN YENİDƏN HAZIRLANMASI

4.1. Vergi orqanlarının vəzifəli şəxslərinin *və digər əməkdaşların* Mərkəzin dinləyicilərinin sırasına daxil edilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilir. [16]

4.2. Mərkəzdə qrupların komplektləşdirilməsi dinləyicilərin iş profili və vəzifəsi nəzərə alınmaqla aparılır. Bundan asılı olaraq Mərkəzdə müxtəlif təlim müddətli qruplar təşkil olunur, müvafiq tədris planları və proqramları işlənib hazırlanır.

4.3. Mərkəzdə dinləyicilərin təlim müddəti Azərbaycan Respublikasının Vergilər Nazirliyə tərəfindən müəyyən edilir.

4.4. Mərkəzdə təlimin forması, məzmunu və metodları tədris planlarına uyğun olaraq müəyyən edilir, hər bir kateqoriya dinləyicilər qrupuna uyğun dəqiqləşdirilir.

4.5. Mərkəzdə məşğələlərin aşağıdakı əsas növləri müəyyən edilir:

mühazirə, seminar, təcrübə və səyyar məşğələ, konkret məsələlərin araşdırılması və s.

Məşğələlər elə qaydada təşkil edilir ki, nəzəri biliklər peşəkar vəzifələrin yaranmasına kömək edən təcrübi misallarla möhkəmləndirilsin. Təhsilin məqsədi nəzərə alınaraq təhsil vaxtı elə bölüşdürülür ki, onun böyük hissəsi təcrübi məşğələlərə və təhsilin aktiv formalarına düşsün.

4.6. Mərkəzin dinləyicilərinin hüquq və vəzifələri aşağıdakılardan ibarətdir:

öz peşə və hüquqi biliklərini, işgüzar keyfiyyətlərini təkmilləşdirmək və ictimai-mədəni səviyyələrini artırmaq;

tədris planları və proqramlarında nəzərdə tutulmuş bütün təlim növlərini yerinə yetirmək;

ixtisasına uyğun olaraq zəruri və praktik əhəmiyyət kəsb edən problemlər üzrə buraxılış işi (referat) yazmaq;

tədris prosesinin təkmilləşdirilməsi və digər problemlər üzrə təkliflər vermək;

kabinetlərdən, auditoriyalardan, kitabxanadan, oxu zalından, hesablama texnikasından və digər köməkçi tədris vasitələrindən istifadə etmək;

daxili intizam qaydalarına əməl etmək.

4.7. Mərkəzdə ixtisasını artıran və yenidən hazırlanan dinləyicilərin bilik səviyyələrinin qiymətləndirilməsi tərkibi Azərbaycan Respublikasının vergilər naziri tərəfindən təsdiq edilməklə yaradılan komissiyanın keçirdiyi məqbul və buraxılış imtahanları zamanı aparılır.

4.8. Mərkəzdə tədris planının tələblərini yerinə yetirən dinləyicilərə ixtisasın səviyyəsi barədə müvafiq şəhadətnamə verilir.

4.9. Mərkəzdə tədris planını yerinə yetirməyən yaxud daxili intizam qaydalarını pozan dinləyicilər Azərbaycan Respublikasının vergilər nazirinə məlumat verilməklə Mərkəzin rəisinin əmrinə əsasən Mərkəzdən xaric edilirlər.

4.10. Mərkəzdə məşğələlər il ərzində davam etdirilir.

4.11. Mərkəzdə *vergi orqanlarının vəzifəli şəxslərinin və digər əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsinə,* ixtisasının artırılmasına və yenidən hazırlanmasına dair təsdiq edilmiş tədris planına mane olmamaq şərti ilə, Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə razılaşdırılmaqla *bağlanılmış* müqavilə əsasında müxtəlif sahələrdə çalışan *şəxslərin, tələbələrin vergi işinin təşkili və iqtisadi fəaliyyət sahəsində peşə hazırlığının təkmilləşdirilməsi, yenidən hazırlanması və* ixtisasının artırılması üçün ödənişli əlavə qruplar yaradıla bilər. [17]

Əlavə qruplarda dinləyicilərin təlim müddəti Mərkəzin Elmi Şurası tərəfindən müəyyən edilir.

## 5. MƏRKƏZDƏ ELMİ TƏDQİQAT İŞLƏRİNİN TƏŞKİLİ

5.1. Mərkəzdə elmi tədqiqat işlərinin əsas vəzifələri aşağıdakılardır:

elm və elmi-texniki problemlərin həll edilməsində ixtisasartırma və yenidən hazırlanma sistemi kadrlarının elmi potensiallarından səmərəli istifadə etmək yolu ilə təlimin keyfiyyətini yüksəltmək;

professor-müəllim heyətinin ixtisas səviyyəsini artırmaq;

elmi tədqiqat nəticələrinin və nailiyyətlərinin tətbiqini təşkil etmək;

vergi orqanlarının kadrlarının ixtisasartırma problemlərinin elmi cəhətdən təkmilləşdirilməsi üzərində tədqiqatlar aparmaq, yeni ideyaları eksperiment qaydasında tətbiq etmək.

5.2. Həmin tədqiqatların və işlərin üstün istiqamətləri və mövzuları hər il Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən müəyyən edilir.

5.3. Mərkəz özünün elmi-pedaqoji kadrlarının hazırlanması və ixtisaslarının artırılmasını aşağıdakı və qanunvericiliklə nəzərdə tutulmuş başqa yollarla həyata keçirir:

aparıcı təhsil, *elmi müəssisə* və təşkilatlarına, dövlət hakimiyyəti orqanlarına təcrübə keçmək üçün göndərilməsi; [18]

mütəxəssislərin iştirakı ilə konfrans və seminarların təşkil edilməsi.

5.4. Mərkəz vergi orqanlarında kadr siyasəti problemləri üzrə araşdırmalar aparır, vergi orqanlarının kadrlarının təhsil sisteminin lazımi metodik və proqram-metodik təminatını işləyib hazırlayır.

5.5. Elmi tədqiqat fəaliyyəti Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəhbərliyi ilə razılaşdırılmaqla və sonradan Mərkəzin Elmi Şurası tərəfindən təsdiq edilməklə perspektiv və cari elmi planlara uyğun olaraq həyata keçirilir.

5.6. Mərkəzdə elmi tədqiqat işləri ali təhsil müəssisələri üçün nəzərdə tutulmuş qaydalarla və şərtlərlə ~~kafedralarda,~~ şöbələrdə *və bölmələrdə* həyata keçirilir. [19]

## 6. MƏRKƏZİN KOLLEKTİVİ

6.1. Mərkəzin kollektivinə professor-müəllim heyəti, elmi əməkdaşlar, inzibati, köməkçi və müqavilə üzrə işləyən digər şəxslər daxildir.

6.2. Əmək müqaviləsi bağlanmazdan əvvəl müəllim və elmi işçi, əməkdaş vəzifələrinə müsabiqəsi keçirilir.

6.3. Mərkəzin bütün kateqoriyalı işçilərinin hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzin Əsasnaməsi, daxili intizam qaydaları, struktur bölmə və şöbələrinin əsasnamələri, vəzifə təlimatları və əmək müqavilələri ilə müəyyən olunur.

Mərkəzin professor-müəllim heyətinin hüquq və vəzifələri aşağıdakılardır:

tədris, elmi-metodiki və təlim işinin təkmilləşdirilməsi üzrə təkliflər işləyib hazırlamaq;

tədris prosesində hesablama texnikasından, laboratoriyalardan, kabinetlərdən, auditoriyalardan, oxu zalından, digər tədris və köməkçi bölmələrdən istifadə etmək;

sahə və idarələrarası, respublika, eləcə də beynəlxalq konfrans, simpozium, qurultay və iclaslarda iştirak etmək;

elmi tədqiqatlar aparmaq, əldə edilmiş nailiyyətlərdən tədris prosesində istifadə etmək;

dinləyicilərə müstəqil işin təşkilində kömək etmək, fərdi məsləhətlər vermək;

tədris prosesini yüksək səviyyədə qurmaq.

6.4. Mərkəzin işçilərinin sosial təminatı məsələləri qüvvədə olan qanunvericilik əsasında həll olunur.

## 7. MƏRKƏZİN MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ

*7.1. Mərkəz dövlət büdcəsinin vəsaitləri və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 22-1-ci maddəsində nəzərdə tutulan və Azərbaycan Respublikası Vergilər Nazirliyinin hesabına köçürülən vəsaitlər, habelə bağlanılmış müqavilələr əsasında ödənişli əsaslarla həyata keçirilən təlim, kurs, konfrans, seminar, forum və digər tədbirlərdən, həmçinin elmi tədqiqat işlərindən əldə edilən vəsait və qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.* [20]

7.2. Mərkəz ona fiziki və ya hüquqi şəxslər tərəfindən hədiyyə, ianə şəklində və ya vəsiyyətlə verilən pul vəsaitləri, əmlak və başqa mülkiyyət obyektləri, habelə Mərkəzin öz fəaliyyətindən götürülən gəlirlər hesabına əldə edilən mülkiyyət obyektləri üzərində istifadə hüququna malikdir.

Mərkəz yuxarıda göstərilən gəlirlərdən və mülkiyyət obyektlərindən tədris, elmi və maddi bazanın inkişaf etdirilməsi və öz fəaliyyəti ilə bağlı digər ehtiyaclar üçün istifadə edir.

7.3. Mərkəz öz fəaliyyətinin nəticələrinin operativ və mühasibat uçotunu aparır, Azərbaycan Respublikasının Vergilər Nazirliyinə statistik və *maliyyə* hesabatlarını təqdim edir. [21]

7.4. Mərkəz bu Əsasnamədən irəli gələn səlahiyyətlər çərçivəsində müqavilələr bağlanması ilə əlaqədar məsələləri sərbəst həll edir.

## 8. MƏRKƏZİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV EDİLMƏSİ

Mərkəzin yenidən təşkili və ləğv edilməsi qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 5 iyun tarixli, 90 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin

## STRUKTURU

1. *"İqtisadiyyat və idarəetmənin tədrisi şöbəsi.*[22]
2. *Vergi inzibatçılığının tədrisi şöbəsi.*
3. *Vergi qanunvericiliyinin tədrisi şöbəsi.*
4. *Elm, innovasiya və əməkdaşlıq şöbəsi.*
5. *Maliyyə, təminat və mühasibat uçotu şöbəsi.*
6. *Tədris və metodika şöbəsi.*
7. *Layihələrlə iş və inkişaf bölməsi.*
8. *Keyfiyyət təminatı bölməsi.*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 28 fevral 2007-ci il tarixli 42 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 2, maddə 201**)
2. 30 yanvar 2008-ci il tarixli 19 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 1, maddə 46**)
3. 17 avqust 2011-ci il tarixli **137** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 08, maddə 783)**
4. 17 oktyabr 2017-ci il tarixli **439** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 oktyabr 2017-ci il, № 230**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №10 , maddə 1901)**
5. 14 mart 2018-ci il tarixli **98** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 16 mart 2018-ci il, № 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 608)**
6. 22 sentyabr 2018-ci il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 sentyabr 2018-ci il, № 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9, maddə 1938)**
7. 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)**
8. 14 yanvar 2020-ci il tarixli **9** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 yanvar 2020-ci il, № 10)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 1.3-cü bəndinə "**şəxslərinin**" sözündən sonra "**və digər əməkdaşların, habelə bağlanılmış müqavilə əsasında müxtəlif sahələrdə çalışan şəxslərin, tələbələrin (bundan sonra – Mərkəzin dinləyiciləri)**" sözləri və "**təkmilləşdirilməsini**" sözündən sonra "**, yenidən hazırlanmasını"** sözləri əlavə edilmişdir.

[2] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 1.4-cü bəndin ikinci abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı, yenidən hazırlanması və ixtisaslarının artırılması;~~

[3] 17 oktyabr 2017-ci il tarixli **439** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 oktyabr 2017-ci il, № 230**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №10 , maddə 1901)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 1.4-cü bəndin dördüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda beşinci abzas əlavə edilmişdir.

23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 1.4-cü bəndin beşinci abzası ləğv edilmişdir.

[4] 17 avqust 2011-ci il tarixli **137** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 08, maddə 783)** ilə 1.7-ci bəndində "**Bakı şəhərində**" sözləri "**Şamaxı rayonunda**" sözləri ilə əvəz edilmişdir.

[5] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nə yeni məzmunda 1.8-ci bənd əlavə edilmişdir.

[6] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 2.1-ci bəndin ikinci abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~vergi orqanlarının vəzifəli şəxslərinin (bundan sonra - Mərkəzin dinləyiciləri) peşə hazırlığının təkmilləşdirilməsini, yenidən hazırlanmasını və ixtisaslarının artırılmasını həyata keçirir;~~

[7] 14 mart 2018-ci il tarixli **98** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 16 mart 2018-ci il, № 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 608)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 2.1-ci bəndin on dördüncü abzasında "**və elmi tədqiqat**" sözləri "**, elmi müəssisə və**" sözləri ilə əvəz edilmişdir.

[8] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 3.1-ci bəndin ikinci abzası ləğv edilmişdir və üçüncü abzasından "**göstərilən**" sözü çıxarılmışdır.

[9] 17 avqust 2011-ci il tarixli **137** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 08, maddə 783)** ilə 3.2-ci bəndinin üçüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Təhsil, elmi-tədqiqat və maliyyə-təsərrüfat sahələri üzrə rəis müavinləri və digər vəzifəli şəxslər Mərkəzin rəisinin təqdimatına əsasən Azərbaycan Respublikasının vergilər naziri tərəfindən təyin olunurlar.~~

23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 3.2-ci bəndin üçüncü abzasında "**təhsil və elmi-tədqiqat və maliyyə-təsərrüfat sahələri üzrə rəis müavinləri**" sözləri "**müavini**" sözü ilə əvəz edilmişdir.

[10] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin

Əsasnaməsi"nin 3.4-cü bəndin ikinci abzasında "**kafedra müdirləri, elmi-tədqiqat bölməsinin, tədris və metodika şöbəsinin rəhbərləri**" sözləri "**şöbə və bölmə rəisləri**" sözləri ilə əvəz edilmişdir.

[11] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 3.4-cü bəndin beşinci abzasında "**kafedra müdirlərini**" sözləri "**şöbə və bölmə rəislərini**" sözləri ilə əvəz edilmişdir.

[12] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 3.4-cü bəndin altıncı abzasında "**kafedralarının, elmi-tədqiqat bölməsinin, tədris və metodika şöbəsinin, maliyyə və təsərrüfat şöbəsinin və digər bölmələrinin**" sözləri "**şöbə və bölmələrinin**" sözləri ilə əvəz edilmişdir.

[13] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 3.4-cü bəndin yeddinci abzasında "**rəhbərlərinin**" sözü "**rəislərinin**" sözü ilə əvəz edilmişdir.

[14] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 3.4-cü bəndin doqquzuncu abzasından "**kafedraların**," sözü çıxarılmışdır.

[15] 14 yanvar 2020-ci il tarixli 9 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 yanvar 2020-ci il, № 10)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 3.4-cü bəndinin onuncu abzasında "**təkliflər hazırlayır**" sözləri "**vəsatət qaldırır**" sözləri ilə əvəz edilmişdir və həmin abzasa "**mövzularını**" sözündən sonra "**müəyyən edir**" sözləri əlavə edilmişdir.

[16] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 4.1-ci bəndinə "**şəxslərinin**" sözündən sonra "**və digər əməkdaşların**" sözləri əlavə edilmişdir.

[17] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 4.11-ci bəndində "**dinləyicilərin**" sözü "**vergi orqanlarının vəzifəli şəxslərinin və digər əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsinə**," sözləri ilə, "**mütəxəssislərin**" sözü "**şəxslərin, tələbələrin vergi işinin təşkili və iqtisadi fəaliyyət sahəsində peşə hazırlığının təkmilləşdirilməsi, yenidən hazırlanması və**" sözləri ilə əvəz edilmişdir və həmin bəndə "**razılaşdırılmaqla**" sözündən sonra "**bağlanılmış**" sözü əlavə edilmişdir.

[18] 14 mart 2018-ci il tarixli **98** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 16 mart 2018-ci il, № 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 608)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 5.3-cü bəndin ikinci abzasında "**və elmi tədqiqat idarə**" sözləri "**, elmi müəssisə**" sözləri ilə əvəz edilmişdir.

[19] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 5.6-cı bəndindən "**kafedralarda**," sözü çıxarılmışdır və həmin bəndə "**şöbələrdə**" sözündən sonra "**və bölmələrdə**" sözləri əlavə edilmişdir.

[20] 28 fevral 2007-ci il tarixli **42** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 2, maddə 201**) ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 7.1-ci bəndindən "**və Azərbaycan Respublikası Vergilər Nazirliyinin maddi həvəsləndirmə və inkişaf fondundan ayırmalar**" sözləri çıxarılmışdır.

30 yanvar 2008-ci il tarixli 19 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 1, maddə 46**) ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 7.1-ci bəndində "**vəsaitləri**" sözündən sonra "**və dövlət vergi orqanlarının büdcədənkənar fondundan ayırmalar**" sözləri əlavə edilmişdir.

17 oktyabr 2017-ci il tarixli **439** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 oktyabr 2017-ci il, № 230**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №10 , maddə 1901)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 7.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~7.1. Mərkəz dövlət büdcəsinin vəsaitləri və dövlət vergi orqanlarının büdcədənkənar fondundan ayırmalar hesabına , habelə bağlanmış müqavilələr əsasında ödənişli əsaslarla müxtəlif sahələrdə çalışan mütəxəssislərin ixtisaslarının artırılmasından, həmçinin elmi tədqiqat işlərindən əldə edilən vəsait hesabına və qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.~~

23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 7.1-ci bəndində "**müxtəlif sahələrdə çalışan mütəxəssislərin ixtisaslarının artırılmasından**" sözləri "**həyata keçirilən təlim, kurs, konfrans, seminar, forum və digər tədbirlərdən**," sözləri ilə əvəz edilmişdir.

[21] 22 sentyabr 2018-ci il tarixli **410** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 sentyabr 2018-ci il, № 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9, maddə 1938)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin 7.3-cü bəndində "**mühasibat**" sözü (ikinci halda) "**maliyyə**" sözü ilə əvəz edilmişdir.

[22] 23 sentyabr 2019-cu il tarixli **416** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 sentyabr 2019-cu il, № 210, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 9, maddə 1570)** ilə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nin "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin strukturu" yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~Rəhbərlik~~

~~İqtisadiyyat və menecment kafedrası~~

~~Vergi metodologiyası kafedrası~~

~~Vergi qanunvericiliyi və təsərrüfat hüquqi kafedrası~~

~~Elmi tədqiqat bölməsi~~

~~Tədris və metodika şöbəsi~~

~~Maliyyə və təsərrüfat şöbəsi~~

~~Mühasibat~~